**Azərbaycan Respublikasının**
**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına**
**Nəzarət Dövlət Xidməti**

**"Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs**

# ƏMR

№3-21-1-3/3-1-F-17/2024

Bakı şəhəri "11" 03 2024 il

**"Elektroenergetika və bərpa olunan enerji" standartlaşdırılması üzrə Texniki Komitənin (AZSTAND/TK 46) yaradılması haqqında**

Enerji resurslarından və təbii ehtiyatlardan səmərəli istifadə, həmçinin enerji effektivliyinin təmin edilməsi, elektrik enerjisi bazarında rəqabət mühitinin formalaşdırılması, elektroenergetika subyektlərinin effektiv və təhlükəsiz fəaliyyətinin təmin edilməsi, elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadənin stimullaşdırılması, inkişaf etdirilməsi dövlət tərəfindən tənzimləmənin əsas məqsəd və vəzifələrindən biri sayılır.

Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2023-cü il tarixli 3721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.05.2023-cü il tarixli, D/O №1-5/1-8204/2023/1217/2023 nömrəli tapşırığına əsasən Avropa Parlamentinin və Şurasının enerji səmərəliliyi və ekodizayn tələblərini əhatə edən direktiv və qaydaların əsasında milli texniki reqlamentlərin və bu reqlamentlərin tələblərini təmin edən istinad standartlarının qəbul edilməsi nəzərdə tutulmuşdur.

Dövlət Proqramının Tədbirlər Planının 8.2.3 bəndinin (beynəlxalq təcrübə nəzərə alınmaqla, standartlaşdırma üzrə texniki komitələrin fəaliyyətinin təkmilləşdirilməsi) icrası, o cümlədən elektroenergetika və bərpa olunan enerji sahələri üzrə dövlət, ilkin, beynəlxalq, regional, dövlətlərarası və Avropa İttifaqının müvafiq direktiv və qaydalarının siyahısına uyğun standartların

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

hazırlanmasında maraqlı tərəflərin iştirakının təmin edilməsi, bu istiqamətdə standartlaşdırmanın müasir tələblərə və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması və enerji təhlükəsizliyinin təmin edilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması, davamlı iqtisadi inkişafın dəstəklənməsi, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsi, həmçinin bu sahədə tələb olunan məhsullar üzrə uyğunluğun qiymətləndirilməsi prosedurunun həyata keçirilməsi məqsədilə normativ sənədlər bazasının yaradılması üçün “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanununun 16.3-cü maddəsini və “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Nizamnaməsinin 3.1.9-cu və 4.2.2.4-cü bəndlərini rəhbər tutaraq

əmr edirəm:

1. “Elektroenergetika və bərpa olunan enerji” standartlaşdırılması üzrə Texniki Komitə (bundan sonra - AZSTAND/TK 46) yaradılsın.

2. AZSTAND/TK 46-nın Əsasnaməsi və strukturu təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Energetika Nazirliyinin təklifinə əsasən, Energetika Nazirliyinin aparat rəhbərinin müavini Xalidə Məsimova AZSTAND/TK 46-nın sədri, Energetika Nazirliyinin Dövlət Proqramları və layihələr sektorunun müdiri Arif Nəzərov AZSTAND/TK 46-nın katibi təyin edilsin.

4. AZSTAND/TK 46-da nümayəndə (əlaqələndirici) olaraq, İnstitutun Elektrotexnika, informasiya texnologiyaları və telekommunikasiya sahələrinin standartlaşdırılması şöbəsinin böyük mütəxəssisi Hüseynova Ülkər təyin edilsin.

5. AZSTAND/TK 46-nın katibliyinin işi və fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən təmin edilsin.

6. AZSTAND/TK 46 15 (on beş) gün müddətində Texniki Komitənin 2024-2025-ci illər üzrə fəaliyyət planının hazırlanmasını təşkil etsin və təsdiq üçün İnstituta təqdim etsin.

7. Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu və Reyestri şöbəsinin müdiri (Rəna Səfərova) AZSTAND/TK 46-ya dair müvafiq sənədlərin qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmasını təmin etsin.

8. İnstitutun Tərcümə və nəşrlər şöbəsinin ekspert-tərcüməçisi (Şəhla Babayeva) AZSTAND/TK 46-nın yaradılması haqqında məlumatın İnstitutun rəsmi internet saytında yerləşdirilməsini və digər kütləvi informasiya vasitələrində yayımını təmin etsin.

9. Kargüzarlıq və sənədlərlə iş sektorunun müdiri (Gülzar Mahmudova) əmrin surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

---

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

10. Əmr imzalandığı gündən qüvvəyə minir.

11. Əmrin icrasına nəzarət baş direktorun müavini Kəmalə Məmmədzadəyə həvalə edilsin.

**Əsas:** Azərbaycan Respublikası Energetika Nazirliyinin 23 fevral 2024-cü il tarixli 3-15/2-810/2024 nömrəli məktubu.

**Baş direktor** **İlham Bayramov**